

## Nəcəf Sabir oğlu Əliyev
## (1961-2020)

"Neftqazelmitədqiqatlayihə" İnstitutunun əməkdaşı, texnika elmləri üzrə fəlsəfə doktoru, neftçi-alim Nəcəf Sabir oğlu Əliyev 2020-ci il noyabr ayının 14-də 59 yaşında vəfat etmişdir.

O, 1961-ci il avqustun 28-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1968-ci ildə Əlcəzairin Bumerdes şəhərindəki SSRİ səfirliyinin nəzdində olan məktəbə getmiş və 1972-ci ilə qədər orada təhsil almışdır.

Nəcəf Əliyev orta təhsilini Bakı şəhəri 159 saylı orta məktəbdə davam etdirmiş və 1978-ci ildə məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olmuş, 1984-cü ildə həmin institutun neft-qaz-mədən fakültəsini "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan, rus və fransız dillərində sərbəst danışırdı.

Nəcəf Əliyev əmək fəaliyyətinə 1978-ci ildə Ümumittifaq Elmi Tədqiqat Layihə Qaz İnstitutunda laborant kimi başlamış, 1984-cü ildə ali məktəbi bitirdikdən sonra isə A.P.Serebrovski adına Neftqazçıxarma İdarəsində (hal-hazırda Bahar Enerji ƏŞ) sahə rəisi vəzifəsində işləmişdir.

O, 1989–1992-ci illərdə Azərbaycan Neft və Qaz Sənayesinin Dövlət Elmi Tədqiqat Layihə İnstitutunun aspirantı olmuşdur. 1992-ci ildə akademik Azad Mirzəcanzadənin rəhbərliyi ilə "Quyuların məhsuldarlığının artırılması məqsədilə kompozit sistemlərin işlənməsi və tətbiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

Nəcəf Əliyev 2002–2007-ci illər ərzində "Dənizneftqazlayihə" DETLİ-də aparıcı elmi işçi, 2007-ci ildə isə "Elmi tədqiqatlar" İnstitutunda aparıcı elmi işçi kimi fəaliyyətini davam etdirmişdir. O, 2008–2009-cu illərdə "Quyuların dərinlik nasosları ilə istismarı" laboratoriyasının müdiri vəzifəsində, 2009-cu ildən 2020-ci ilin noyabr ayına qədər isə "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Elmi-texniki informasiya və patent" şöbəsinin aparıcı elmi işçisi vəzifəsində çalışmışdır.

N.S. Əliyevin elmi fəaliyyətinin əsas istiqamətini neft quyularının qum tıxacından yuyulması sahəsində ehtiyatlara və enerjiyə qənaət edən texnologiyaların işlənməsi və tətbiqi təşkil etmişdir.

Nəcəf Əliyev 20-dən çox elmi əsərin müəllifi olmuşdur. Onun əsərləri istər respublikamızda, istərsə də keçmiş SSRİ-nin neft və qaz sənayesi üzrə nəşr edilən "Azərbaycan neft təsərrüfatı", "Инженерно-физический журнал" və s. kimi bir sıra jurnallarda dərc edilmişdir. Beynəlxalq respublikadaxili və xarici konfranslarda neft və qaz sənayesi üzrə məruzələrlə çıxışlar etmişdir.

Nəcəf Sabir oğlu Əliyevin əziz xatirəsi "Neftqazelmitədqiqatlayihə" İnstitutunun əməkdaşlarının, onun həmkarlarının və yaxınlarının qəlbində əbədi yaşayacaqdır.

***Allah rəhmət eləsin !***

**"Neftqazelmitədqiqatlayihə" İnstitutunun**
**rəhbərliyi və kollektivi**